

ELNUR UĞUR ABDİYEV

## RUHUMUZ

Dənik, göyə qalxarıq,
bir quşun dimdiyində.
Bir az ruhu ovudar,
dimdik hər çimdiyində.

Qandı sonu hər adın,
Az fitrəti qanadın.
Yolun o quş qanadın,
Hər yerə endiyində.

Göy yerə mənsiz qərib,
Mən də ki sənsiz qərib.
Bizə ruh əmizdirib,
Həyat ilk əmziyində.

## ADƏM

Yenə də eşqdən sərxoşsan,
Daha içmə, a dəm, Adəm!
Sevmək üçün qovulmuşsan,
Cənətindən Adəm-Adəm.

Həsrət soyundum, eşq geyim.
Eşqsiz canımda yox heyim.
Tanrı meyimdir eşq meyim,
Son vədəmdi, o son badəm.

Hər gün qaçmaq var özündən,
Hər gün düşmək var gözündən.
Yarandım bir ol sözündən,
Vuruldum dolmamış vədəm.

## SƏBR!

Təbriz dedim ruh səksəndi,
Duyğum kişnədi, kişnədi.
Anladım həsrətli yurdum,
Eşqə təşnədi, təşnədi.

Sən də anla, yol ara, bul!
Eşqin vətənsiz qarı, dul.
Oğul, vətəndədir oğul,
Yurdsuz heç nədi, heç nədi.

Yetər nağıllar süslədik,
Bitdi e ümid bəslədik.
Biz göydən alma gözlədik,
O da düşmədi, düşmədi.

RUHUN ŞEİRİ

Ruh didərgin düşəndə,
Can çəkir qəfəs dəri.
Yanır cızdağın çıxır,
İçdən əri, ha əri.

Vaxt ömrə dəyən çəkic,
Hər gün sınır bir kərpic.
Çox da xeyir- şər əkiz.
Xeyir var örtmür şəri.

Ümid son baharadır,
Xəyallar sırsıradır.
Bəzən ümman yaradır,
Bir damla alın təri.

## HARDASA

Hardasa
bir nöqtə boyda darıxanım varsa,
hardasa
vergülünü dəqiq qoymuşam
ömür adlı bu yarımçıq cümlənin.
Hardasa bilirəm gözləyir biri,
bilirəm anasını ağladır günlərinin.
Hardasa
uzaqların yaxınlığından bezir xəyallar
Qucaqlayıb hönkürməyə qollarım ağlar.

Gəl, yaxın gəl,
səhər üzlü,
gecə gözlü,
şeir sözlü.
Misralarının boyu qısalıb
sən getdiyin gündən,
Hecalar elə ovulur içindən,
sanki sahilindən
ləpələr yeyir bu ömrün ləpədöyənini.
Qaya kimi başından yıxılır,
ayağından sürtüşən xatirələr.
Hardasa
bir soba yanır bu qış günündə,
isinmir təkadamlıq çarpayıda iki nəfər.
Hardasa,
bu yarımçıq cümləni də
sona qədər oxumağa
hövsələsi çatmır dodaqların.
Hardasa
bir nöqtə boyda ürəyə səs salır,
keçmişdən gələn ayaq izləri.
Diksinirsən,
qorxursan gözlərini açmağa da.
Qorxursan kirpiklərini
o xəyala qana batırmağa da.
Hardasa,
bu hissləri his titmayıbsa hələ də.
Kəraməti vergüllə qoymuşuq deməli nöqtədə.

## BALACA NƏRMİNİN QƏTLİNƏ

Bir fidanı qopardılar,
Ana ağacın kökündən.
Ana ağac qanadı kötüyündən,
təpəsinə qədər.
Göz yaşları islatdı,
yarpaqlarını,
şeh-şeh tüpürdü,
ağac sübhün üzünə acısını.
Qoparılan körpə fidanın yeri boş qaldı,
hər gecə ana ağac,
hamı yatandan sonra,
bağrına basdı o boş yeri.
Səhəri,
körpələri qətl edən əllər,
yenə də ana ağacın altında,
o yerin üstünə örtdülər ayaqlarını.
Ayaqlarının altından çəkdikləri yerdə,
elə dayandılar,
sanki savab işləmişdilər,
bir də...

## VƏTƏNİN SINAĞI

Anamın əllərilə
başıma sığal çəkdi zaman.
Məni dünyaya oğul doğan anam,
bilmədi vətən adlı imtahandan,
kəsrə qalacağımı.
Yoxsa doğmazdı, yəqin!
Mən boyda canlı dərdin,
yaxasını çoxdan buraxıb ölüm.
Hər gün sabahı açanda,
yaşamımla ölümün intiharına güldüm.
Hər səhər
günəş öpdükcə danın ağ sinəsini,
bir körpə qığıltısıyla,
danın qapısının arxasından səs gəldi.
Qapının bu tayında
sınmış süd şüşəsi idi həyat.
Laçında,
sevgimin ozon qatını deşmişdi mərmilər.
Anamın əllərində qırışmışdı,
mənə uzatdığı süd şüşəsinin əmziyi.
Körpə ikən görmüşdüm,
Xocalıda güllələnmiş insanlığı.
Fəqət,
yaşamaq meylim,
həyat sevgim,
hələ də daldalanmağa çağırırdı məni.
Mən daldalandıqca,
düşmən budayırdı bu ağac vətəni.
Anam bir yeni ağı öyrənirdi hər gün.
Düşünmürdüm,
düşünmürəm,
düşünməyəcəyəm deyirdim kimsə üçün.
Və düşünmədikcə
düşüncəmdə
sırsıralandı qan yaddaşım.
Sıralandı təqvim-təqvim
ölümü neçə qandaşın.
Ey sülh ölkəsinin sübh adamı,
düşünsənə.
Hanı
Ana sevgin?
Düşmənə qoyub gəldiyin,
Bakıda adına kafe dikəltdiyin
Şuşa restoranında
Ləzginka havasına sındırılan
sümüklərdən axan
iliklərdə çiliklənir Şuşanın şüşə sifəti